## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin etik davranış məsələləri ilə bağlı 2021-ci ildə görülmüş işlər barədə illik hesabatı

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planının 8.10.1-ci yarımbəndinin icrası üzrə Əqli Mülkiyyət Agentliyində hesabat ili (2021-ci il) ərzində korrupsiya barədə məlumat vermə, qərəzsizlik, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, maraqların toqquşması və digər etik davranış qaydaları üzrə mütəmadi müzakirələr keçirilmişdir.

2021-ci ilin 3 dekabr tarixində Əqli Mülkiyyət Agentliyində "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən etik normalara dair dövlət qulluqçularının maarifləndirilməsi məqsədilə onlayn təlim keçirilmişdir.Təlimdə Agentliyin aparatında çalışan 40-a yaxın dövlət qulluqçusu iştirak etmişdir. Təlimdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun əsas məqsəd və prinsipləri, Agentliyin müvafiq əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularının etik davranış qaydaları" və bu qaydalara əməl edilməsinin dövlət qulluğunda əhəmiyyəti, dövlət qulluqçularının qarşılaşa biləcəkləri etik dilemmalar haqqında məlumat və etik davranış qaydalarına əməl olunmasına dair tövsiyələr verilmişdir. Bununla yanaşı, dövlət qulluqçularının xidməti davranış qaydaları və prinsipləri, dövlət qulluqçularının etik davranış qaydaları haqqında broşura və yaddaş kitabçası kimi metodiki vəsaitlər hazırlanmış, Agentliyin aparatında çalışan işçilərin istifadəsinə verilmişdir.

Hesabat ili ərzində Agentliyin dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulması halları qeydə alınmamışdır, intizam tənbeh tədbirləri tətbiq edilməmişdir.